# "Hər bir azərbaycanlının ürəyində Heydər Əliyev heykəli var"



***"Ümummilli Lider Heydər Əliyev Azərbaycan tarixində əvəzsiz rola malikdir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib.O bildirib ki, Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olub: "Bu dövrdə çox böyük tarixi işlər görüb, yeni rayon, şəhərlər salıb, Azərbaycan inkişaf etmiş sənaye respublikasına çevrilib. Məhz bu, Heydər Əliyevin o dövrdəki fəaliyyəti ilə bağlıdır. Heydər Əliyevin apardığı işləri görən SSRİ rəhbərliyi onu irəli çəkərək SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edib. 1982-ci ildə onu siyasi büroya apardılar, həmin büronun sədri seçildi. Orada da SSRİ-nin taleyüklü məsələlərində iştirak etdi.***

Nəqliyyat, sənaye sahələri də Heydər Əliyevin xülasəsində oldu. Ancaq sonradan SSRİ rəhbərliyində dəyişiklik oldu. Mixail Qorbaçov hakimiyyətə gəldi. Heydər Əliyevin nüfuzundan, işgüzarlığından qısqanaraq ona qarşı qarayaxma kampaniyaları təşkil etdirdi. Onların bu yarıtmaz siyasətinə etiraz olaraq 1987-ci ilin oktyabrında istefa verdi.Heydər Əliyev sonra Moskvada yaşadı. 1990-cı ilin yanvar hadisələri törədiləndən sonra Moskvada Azərbaycan nümayəndəliyinə gələrək SSRİ rəhbərliyinə qarşı sərt bəyanatla çıxış etdi. Azərbaycan xalqına qanlı qətliam törətmiş adamların ciddi cəzalanmasını tələb etdi.

Dağlıq Qarabağdakı proseslərə SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz olaraq 1991-ci ilin iyununda da Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin sıralarını tərk etdi. 1990-cı ildə Bakıya qayıdıb. Burada da o zamankı hakimiyyət onu dinc qoymadı, doğma Naxçıvana getdi. Qısa müddətdə xalqın böyük dəstəyi ilə Azərbaycan SSRİ Ali Sovetinə deputat seçildi, həm də Naxçıvan Muxtar Ali Sovetinin deputatı oldu. Eyni zamanda 1991-ci ilin sentyabrında Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin sədri seçildi. O zamankı qanunvericiliyə görə Azərbaycan Respublikası Ali Sovetinin sədrinin müavini seçildi. Heydər Əliyev Azərbaycanda gedən prosesləri də izləyirdi. Bilirdi ki, belə qarışıq dövrdə Azərbaycana inkişaf üçün yeni siyasi fəaliyyət növü lazımdır. Onun rəhbərliyi ilə 1992-ci ilin noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası seçildi. Heydər Əliyev də həmin partiyanın sədri seçildi.

YAP təkcə Naxçıvanda yox, Respublikanın hər yerində böyük işlər apardı. 1992-ci ildə Müsavat rəhbərliyi dövləti idarə edə bilmirdi. Həm cəbhədə vəziyyət gərgin idi, həm də xalq pis vəziyyətdə yaşayırdı. Buna səbəb də Gəncə qiyamı baş verdi. Belə ağır dövrdə o zamankı Azərbaycan rəhbərliyi Heydər Əliyevə xahiş etdilər ki, gəlib bu məsələlərə rəhbərlik etsin. Xalqın təkidli tələbi ilə Heydər Əliyev Bakıya gəldi. 1993-cü ildə Ali Sovetin sədri seçildi. İsa Qəmbər iştefa verdi. Artıq Azərbaycan Prezidenti Əbülfəz Elçibəy də qaçmışdı. Ona görə də iyunun 24-də Heydər Əliyev Prezident səlahiyyətlərini icra etməyə başladı. 1993-cü ilin Prezident seçkilərində də böyük səs çoxluğu ilə qələbə qazandı. Hakimiyyətinin ikinci ili ərəfəsində də Heydər Əliyev tarixi işlər gördü. Cəbhədə atəşkəsə nail oldu. Azərbaycanı bu bəladan qurtarmaq üçün ən böyük iqtisadi layihə olan "Əsrin müqaviləsi"ni bağladı. Azərbaycan iqtisadiyyatını inkişaf etdirdi, eyni zamanda Azərbaycanda milli ordunun yaradılmasında böyük səy göstərdi. Neft kapitalından əldə olunan gəlirləri insan kapitalına çevirdi. Eyni zamanda ordunu gücləndirdi. 2003-cü ildə Prezident seçkilərinə namizədliyini verdi. Səhhəti ilə əlaqədar namizədliyini geri götürdü, İlham Əliyevi irəli sürdü.

Vəsiyyət edərək xalqa bildirdi ki, Azərbaycanın gələcəyi İlham Əliyevlə bağlıdır: "Çünki mənim həyata keçirə bilmədiyim məsələləri İlham Əliyev həyata keçirəcək". Qədirbilən Azərbaycan xalqı da onun dediklərinə böyük dəstək oldu. Xalq İlham Əliyevi Prezident seçdi. Həmin vaxt xəstə olan Heydər Əliyev 12 dekabr tarixində dünyasını dəyişdi. Dekabrın 15-də dəfn edildi".“Ümummilli Liderin Azərbaycanda fəaliyyəti böyükdür. Bu gün torpaqlarımızın erməni tapdağından azad edilməsi Heydər Əliyevin qoyduğu siyasi xəttin nəticəsidir. Heydər Əliyevin yaratdığı iqtisadi inkişafın nəticəsidir. Ona görə də, xalqımız həmişə onu ehtiramla anır. Hər bir azərbaycanlının ürəyində Heydər Əliyev heykəli var. Xalq var olduqca da Heydər Əliyev var olacaq" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***